"TƏSDİQ EDİRƏM"

Naxçıvan Dövlət Universitetinin rektoru:

E.S.İsayev

"7" yanvar 2024-cü il

**Naxçıvan Dövlət Universitetinin Texnoloji transfer və innovasiyalar bölməsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Naxçıvan Dövlət Universitetinin Texnoloji transfer və innovasiyalar bölməsi (bundan sonra - Bölmə) Naxçıvan Dövlət Universitetinin (bundan sonra - Universitet) struktur bölməsi olmaqla bilavasitə Universitetin rektoruna tabedir.

1.2. Bölmə Universitetin Elmi Şurasının qərarı ilə yaradılır və ləğv edilir.

1.3. Bölmə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Universitetin Nizamnaməsini, digər qanunvericilik aktlarını, Universitetin rektorunun əmr və sərəncamlarını, Universitetin Elmi Şurasının qərarlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Bölmə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Universitetin digər struktur bölmələri və aidiyyəti təşkilatlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Bölmənin fəaliyyət istiqamətləri

2.0. Bölmə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. Universitetin maraqları çərçivəsində, regional müəssisə və təşkilatların ehtiyaclarını və Universitetin mövcud fundamental və strateji işlərini biznes tələbatlarına uyğunlaşdırmaq;

2.0.2. biliklərin texnologiyaya çevrilməsini, elmi tədqiqatlardan əldə olunan nəticələrin kommersiyalaşdırılmasını və istehsalat prosesində istifadə edilməsini təmin etmək;

2.0.3. Texnologiyaların inkişafı və innovasiyaların stimullaşdırılması məqsədilə təşkilati xidmətlərin hüquqi mühafizəsi, ideya və ixtiraların müəllif hüquqlarının qorunması və patentləşdirilməsi istiqamətində çalışmaq;

2.0.4. innovasiya sferasında konsaltinq, elmi-texniki və treyninq xidmətlərini göstərmək;

2.0.5. təhsil, sosial inkişaf, regional və infrastruktur, informasiya siyasəti, proqnozlaşdırma, innovasiya və digər istiqamətlərdə araşdırmalar aparmaq;

2.0.6. elmi tədqiqat işlərinin nəticələrinin istehsalata və tədris prosesinə (mühazirə, məşğələ, seminar, laboratoriya dərslərinə, kurs layihələrinə, kurs və buraxılış işlərinə, magistr dissertasiyalarına) tətbiq olunmasını təmin etmək;

2.0.7. elmi araşdırmaları innovasiya xarakteri daşımaqla təhsilin təşkilinin və idarə olunmasının təkmilləşdirilməsinə, tədris prosesinin müasir metodlarla qurulmasına, tədrisin yeni texnologiyalarının və digər istiqamətlər üzrə pedaqoji innovasiyaların hazırlanmasına və tətbiqinə yönəltmək;

2.0.8. Universitetdə patentləri, müəlliflik hüquqlarını və ticarət nişanlarını idarə etmək və bölməyə daxil olan müraciətlərə müvafiq olaraq bu sahədə fəaliyyət göstərən səlahiyyətli qurumlarla əlaqələndirmək;

2.0.9. Tədris və tədqiqatda startap mədəniyyətini təşviq etmək və startap layihələrini dəstəkləmək;

2.0.10. Universitet miqyasında texnologiyanın sənayeyə effektiv transferi vasitəsilə tədqiqat layihələrini və təqaüd proqramlarını təşviq etmək;

2.0.11. elmi nəticələrin bazara çıxarılmasının davamlılığını təmin etmək və yeni məşğulluq imkanları yaratmaq məqsədi ilə tədqiqat nəticələrinə əsaslanan kommersiya təşkilatlarının (spin-of və startap) formalaşmasını dəstəkləmək;

2.0.12. Universitetdəki yenilikləri, kəşfləri beynəlxalq platformaya çıxararaq elmi nüfuzun və beynəlxalq göstəricilərin artırılmasına xidmət etmək;

2.0.13. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Bölmənin vəzifələri

3.0. Bölmə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. innovasiya fəaliyyətini inkişaf etdirmək, Universitet, sənaye və biznes qurumları arasında səmərəli qarşılıqlı əlaqələri yaratmaq və universitet əməkdaşlarının apardığı elmi-tədqiqatlardan əldə olunan nəticələrin transferini təmin etmək;

3.0.2. innovasiyalı texnologiyaların məlumat bazasının yaradılmasını həyata keçirmək;

3.0.3. innovasiyalı texnologiyaların kommersiya potensialının qiymətləndirilməsi üzrə məsləhətlər vermək;

3.0.4. innovasiya fəaliyyəti və texnologiyaların transfer məsələləri üzrə elmi-tədqiqat sifarişlərini elmi-tədqiqat institutu və mərkəzlərinə yönləndirmək;

3.0.5. əqli yaradıcılıq fəaliyyətinin kommersiya əhəmiyyətli nəticələrinin hüquqi müdafiəsi üzrə məsləhətlər vermək;

3.0.6. ixtiranın kommersiyalaşdırma potensialının və patentləşdirmə imkanının qiymətləndirilməsini həyata keçirmək;

3.0.7. mümkün tərəfdaşların müəyyənləşdirilməsi, danışıqların hazırlanması və keçirilməsi fəaliyyəti ilə məşğul olmaq;

3.0.8. Universitetin tədqiqat mərkəzləri və institutlarında yaradılan əqli mülkiyyət hüquqlarının qorunması, inkişaf etdirilməsi və bu məqsədlə tədqiqat mərkəzlərinin şirkətlərlə əməkdaşlıq əlaqələrini qurmaq;

3.0.9. Universitetdə inkişaf etdirilən texnologiya əsaslı biznes bacarıqlarının yaradılması, rəqabət qabiliyyətinin artırılması, inkişaf strategiyalarının müəyyənləşdirilməsi və universitetin nou-hau (know-how) fəaliyyətini idarə etmək;

3.0.10. Universitetin tanıdılması, innovasiya və texnoloji transfer sahəsində birgə fəaliyyəti həyata keçirən xarici tərəfdaşlarla qarşılıqlı əməkdaşlıqlar qurmaq;

3.0.11. biznes ilə elmi tədqiqat və ali təhsil müəssisələri, habelə ictimai təşkilatlar arasında əməkdaşlığı təşkil etmək;

3.0.12. müəssisələrdə innovativ həllərin qorunması və ötürülməsi kimi innovasiya idarəetmə proseslərinin koordinasiyasını həyata keçirmək;

3.0.13. Universitetin təşəbbüsü ilə tədqiqat prossesində yaranan ixtiraçılıq nəticələrinin təşviqi və kommersiya məqsədləri üçün istifadə etmək;

3.0.14. Universitetdə aparılan tədqiqat nəticəsində yaranan dəyər zəncirinə dair strategiyanın gücləndirilməsini, layihələrin qiymətləndirilməsini həyata keçirəcək tələb və təklifləri formalaşdırmaq;

3.0.15. innovasiya ilə əlaqədar sərgilərdə iştirak etmək;

3.0.16. müvafiq seminar, konfrans, təlim və təqdimatların keçirilməsini təşkil etmək;

3.0.17. müxtəlifyönlü təhsil məkanında insan resurslarının inkişafı, strateji hədəf kimi, onların müasirləşdirilməsi nəticəsində təhsilverənlərin insan, sosial və intellektual kapital növlərinin sintezi əsasında Universitetin innovasiya potensialının inkişafı;

3.0.18. strateji hədəfi təmin etmək istiqamətində Universitetin maddi-texniki bazasını genişləndirmək, yay məktəbləri, kampus və digər təlim mərkəzlərini qurmaq;

3.0.19. Universitetin elm-təhsil-innovasiya bilik üçbucağı vasitəsilə bölgədə ali təhsil xidmətləri sahəsində rəqabət üstünlüyünü artırmaq;

3.0.20. Universitetin texnoloji transferlər üzrə fəaliyyətini genişləndirmək, innovasiyaların mübadiləsinin təşkil etmək, innovasiya fəaliyyətini stimullaşdırmaq;

3.0.21. Bölmənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.0.22. qanunvericilikdə nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək.

## 4. Bölmənin hüquqları

4.0. Bölmə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. Bölmənin fəaliyyəti ilə bağlı aidiyyəti struktur bölmələrindən, mütəxəssislərdən və müraciət edən vətəndaşlardan zəruri olan sənədlərin və məlumatların təqdim olunmasını tələb etmək;

4.0.2. Bölmənin fəaliyyəti ilə bağlı və səlahiyyəti daxilində Universiteti dövlət orqanları, hüquqi və fiziki şəxslər və başqa təşkilatlar qarşısında təmsil etmək;

4.0.3. Bölmənin fəaliyyəti ilə bağlı və səlahiyyəti daxilində Universitetin başqa struktur bölmələrinə və mütəxəssislərinə icra üçün məcburi olan göstərişlərin verilməsi üçün rəhbərliyə təkliflər vermək;

4.0.5. Bölmənin fəaliyyəti ilə bağlı rəhbərliyin razılığı ilə müvafiq sahədən ekspertlərin və mütəxəssislərin cəlb olunmasını, digər struktur bölmələrindən zəruri sənədlərin təqdim olunmasını tələb etmək;

4.0.7. Universitetin struktur bölmələri tərəfindən hazırlanmış sənəd layihələrinin (məktub, arayış, sorğu, hüquqi akt və s.) hazırlanmasında iştirak etmək;

4.0.8. qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Bölmənin fəaliyyətinin təşkili

5.1. Bölmənin strukturunu və ştat vahidlərinin sayını Universitetin rektoru təsdiq edir.

5.2. Bölməyə Universitetin rektorunun əmri ilə təyin olunmuş bölmə müdiri rəhbərlik edir.

5.3. Bölmə müdiri:

5.3.1. Bölmənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.3.2. tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

5.3.3. Bölməyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.3.4. Bölmə üzrə Universitetin Elmi Şurasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Universitetin rəhbərliyinə təqdim edir;

5.3.5. Bölmənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Universitetin rəhbərliyinə təqdimatlar verir;

5.3.6. Bölmənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Universitetin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.3.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.3.8. Bölməni təmsil edir.